

## *AKBAR KUBANIÇBEKOV*
(АКБАР КУБАНЫЧБЕКОВ) –

*22 aprel 1992-ci ildə Narın bölgəsinin*
*At başı elinin Qara suu kəndində doğulub.*
*2015-ci ildə Yusif Balasaqunlu ad. Qırğız Milli*
*Universitetinin Qırğız filologiyası fakultəsini bitirib.*
*Qırğız Respublikası Milli Yazıçılar Birliyinin üzvüdür.*
*Alıkul Osmanov ad. Ədəbi ödülün laureatıdır.*
*"Fəriştənin qanadı",*
*"Bir gün" adlı şeir topluları gün üzü görüb.*
*Hazırda Qırğız Tele-Radio*
*Komitəsində çalışır.*

# *BİR GÜN*

Bir gün gələr köç karvanın yollanar,
Bir gün gələr bəxtin üzü allanar;
Varlığını qoruduğun bədənin,
Bir gün gələr, bir quyuya sallanar.

Bir gün süzüb təyyarətək uçarsan,
Bir gün uçub quşlara yol açarsan;
O dünyadan özünə ev aldınsa,
Bir gün gəlib yaşayarsan, bacarsan.

Bir gün gələr taleyinə qonar şan,
Bir gün olar iki ürək bir vurar.
Zəhəri də bal adına yedirər,
Bir gün səni ayrı salar dostundan...

Bir gün olar qol götürüb uçar at,
Bir il keçər, bala açar qol-qanad;
Bilinməyən bəxtin dadına baxıb,
Ötüb keçər ömür adlı əmanət...

Bir gün gələr əcəl çatar atana,
Bir gün gələr ölüm qonar anana;
Olan olur... Tanrı gecindən versin,
Bir gün üçün min gün hesab qapanar.

Bir gün olar ümidimə şam, çıraq,
Bir gün gələr ağ-boz atım çaparaq;
Bir bayrağın kölgəsində əsgərim,
Bir gün məndən zəfər əmri alacaq..!

Bir gün aləm gözlərini doldurar,
Bir gün yaxın-uzaq – hamı yox olar;
Bilirsən ki, ümidlər azalanda,
Arsız adam şeytanı da dost qılar...

Bir gün gözlər qapanarsa, yox güman,
Bir gün yolun görünməyən boz duman;
Bu dünyanın sanlı yazarı kimi,
Bir gün mən də öz şeirimi oxuyam...

Bir gün axır qiyamət də gələcək,
Qorxunc, xəstə - hər kəs sonda öləcək;
Ömrün boyu xoş amalla yaşa ki,
Əvvəl-axır fəriştələr biləcək...

Bir gün dursa ürəyində şah damar,
Bir gün yanıb alovundan od salar;
Büt adamlar imana qul olmasa,
Gün gələr ki, bu Yer üzü yox olar...

Bir gün gələr öz yerindən uçar can,
Bir gün gələr ayrılanlar tapışar;
Biz aparırıq ölənləri məzara,
Bir gün bizi aparanlar tapılar...

## *GÖRDÜM*

Gec oldu... sonunda çıxdım yoluma,
Günlərlə qaçaraq xəyaltək uçdum;
Gördüm gen dünyanı öz ürəyimcə,
Könül qapılarmı taybatay açdım.

Heç bilmirəm, kimdi məni arayan?
Mən gözləyən kimid? – xatırlamıram...

O anaydı...
                    sən azca səbr eyləsən,
Bir körpə ətrindən ruhun məst olar.
Dadı heç vaxt damağından getməyən
Ana südü yaddaşında iz qoyar...

Sevgi idi...
                Yalqız daştək ovulub...
Yenilən,
          "Mən!" deyən qəhrəman olmuş...
Bir göz qırpımında üstünə qonub,
Bir də görərsən ki, tələyə salmış...

Göz yaşıydı...
Özüm öz qəlbimə baş əymişəm mən,
Bəxtimi bəlalar əlimdən aldı...
Aman, bəla dünya, dərd verən dünya,
Ötən zamanlardan sənə nə qaldı..?

Ev idi...
Əzrayıl lövbər salaraq,
İçində can gəzər – qəlbinə yatan...
Evlər var uzanar göyüzünədək,
Boş qalmış otaqlar qulaqbatırar...

Sehr idi...
Gecənin Gün üzlü Ay işığı var,
Arzuların dalğa-dalğa axışı var.
Evinə çatmağa can atanların,
Ömürdən savayı nə naxışı var?..

... Alim
gecə kitab oxur, göz yummaz,
Həmsöhbət axtarar – özünə oxşar.
Arılar bal çəkər, o bilik toplar,
Alimdir əməli sözünə oxşar.

Düşüncə yolları dördə bölünər,
İllər bir-birini qovaraq keçər;
Zaman qamçısını göstərib ötər,
Eh, həyat nələrin sirrini açar..?

## *ANA ÜRƏYİ*

Dalğın görsə gecə qırpmaz gözünü,
Zülməti əridər şam şöləsitək.
Düşünmədi heç bir ana özünü,
Təmizdir analar eşq mələyitək.

Utanc hisslərimdən hifz eyləyərək,
Alqışla yanlışı düzəltdin min yol;
Gözlərin yol çəkdi, yollara baxdın,
Gecələr keşikçim oldun, çox sağ ol.

Başım sığallanar, qəlbim gülərdi,
O ana
        dünyanı dəyişmərəm mən;
Dağ boyda dərdləri oyuncaq bildin,
Dağdan uca oldun, beləliklə, sən..!

Yanımdasan, harda olsam, can ana,
duracaqsan bəxtə, ömrə nur saçıb.
Böyüyübdür daha bu dəcəl balan,
arzuların çiçək açıb, gül açıb.

Yer üzünü ana mehri ovudar,
Nurun yetər, bəşər qalsa can üstə.
Yaranmazdı qırğın, savaş heç zaman,
Səninkitək ürək olsa hər kəsdə...

(Çevirən: **Gülnar SƏMA**)